**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ**

# QƏRAR

№ 2/4

Bakı şəhəri 15 fevral 2017-ci il

Azərbaycan gənc alimlərinin I qurultayının
keçirilməsi haqqında

Ölkədə gənclər siyasətinin daha da inkişaf etdirilməsi, gənclərin elmə cəlb edilməsi, onların elm sahəsində fəal iştirakına şəraitin yaradılması və yaradıcılıq potensiallarının artırılması, eyni zamanda gənc alimlərin elmi fəaliyyəti ilə bağlı problemlərin öyrənilməsi və həmin problemlərin aradan qaldırılması məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikası Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə 2017-ci ilin oktyabr ayında Azərbaycan gənc alimlərinin I qurultayı keçirilsin.
2. AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil idarəsinə (texnika üzrə elmlər doktoru Əminağa Sadıqov), AMEA-nın Gənc alim və mütəxəssislər şurasına (fizika üzrə fəlsəfə doktoru Famin Salmanov) tapşırılsın ki, Təhsil Nazirliyinin müvafiq qurumları ilə birlikdə bir ay müddətində Azərbaycan gənc alimlərinin I qurultayının keçirilməsi ilə bağlı tədbirlər planı hazırlayıb AMEA Rəyasət Heyətinə təqdim etsinlər.
3. Qərarın icrasına nəzarət AMEA-nın akademik-katibi, akademik Rasim Əliquliyevə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT